**Elşən Mirişli**
Gəncə şəhəri, tarixçi

# İşğala Qarşı Azərbaycan Milli Hərəkatı

II Yazı

***Üstəlik, bu qara və mürtece qüvvələr sollar , sosialistlər və kommunistlərlə də birləşir. "Qurana" arxalanan şəriətçilərlə, "Kapitala" səcdə edən marksistlər iki qəlbdə bir cana dönürdülər.***

***"İttihad" milliyəti qəbul etmir ümmət anlayışını, buna uyğun olaraq istiqlalı, demokratiyanı və cümhuriyyəti kökündən inkar edən və geri qalmış ictimai bir ideologiya ilə danışırdı.Marksistlər də başqa bir motivdən milliyyəti,istiqlalı və cümhuriyyəti rədd edən bir doktirina danışıqları üçün başqa-başqa və daban –dabana zidd məqsədlər naminə "Müsavat"a qarşı bir cəbhə halına gəlmişdilər.Bu göstərir ki,hər hansı bir topluluq və çoxluq bir birliyi,hər hansı bir birlik də bir yekdilliyi göstərməz.M***addi birlik və yekdillik üçün mənəvi birlik lazımdır.

Vaxtilə mədəni milliyətçiliyimizi quran və bizə bir proqram hazırlamağa müvəffəq olan liberal milliyyətçilərə qarşı Kazan,Ufa, Baxçasaray və Bakıda inqilabçı milliyətçilərdən çoxunun müxalifət prinsipi və əsil qayəyə deyil, sırf taktika və vasitəyə bağlanırdı.Onun üçündür ki,proqram halına saldıqları milli ideala bütün varlıqları ilə sarılmış olan liberallar taktikalarının iflasını görüncə inqilabçı milliyətçilərə haqq qazandırdılar və səmimiyyətlə onlara qoşuldular."Müsavat" bu birləşmədən doğmuşdu."Müsavat"dan sağa və sola qalan "İttihad" və "Hümmət"-çilərlə isə ixtilaf taktika və vasitəyə deyil, prinsip və əsil gələcək qayəyə bağlanırdı.Onlar üçün "Müsavat"ın müdafiə etdiyi milliyyət,Türklük,demokratiya və cumhuriyyət prinsipləri yabançı,hətta zərərli şeylərdi.İslami beynəlmiləl şüarlarla proletar marksist beynəlmiləl doktirinalarının Azərbaycançılıq,milliyyətçilik və cumhuriyyətçilik prinsipləri ilə bir araya sığmayacağı göz qabağındadır.Onun üçündür ki, onlar Xəlil paşa və yoldaşlarının "tövsiyyə"lərinə dərhal qapandıqları halda, "İttihad və Tərəqqi" nümayəndələrinin "Müsavat" üzərində heç bir təsiri olmamışdır.

Azərbaycançılıq,milliyyətçilik,türkçülük və cümhuriyyətçilik prinsipləri üzərində daim əsən yalnız "Müsavat" firqəsi olmuşdu.Parlament bolşevik ultimatumunu qəbul edərkən "Müsavat" firqəsinin rəisi Məhəmməd Əmin Rəsulzadə irad etmiş olduğu nitq prinsip və məfkurəsinə bağlılıq və sədaqətini əbədiləşdirən bir sənəddir. Məmməd Əmin Rəsulzadə demişdir: "Əfəndilər! Türkiyə Azərbaycanın xilaskarıdır.Milli duyğularımızın şəhrətləndirdiyi müqəddəs bir məmləkətdir! Onun xilasına gedən qüvvəni biz məmnuniyyətlə qarşılayır və yola salarıq.Fəqət bir şərtlə ki,bu qüvvə bizim azadlığımızı,istiqlalımızı çeynəməsin.Halbuki,əfəndilər, bizdən soruşmadan sərhəddimizi keçən hər hansı bir qüvvə dostumuz deyil,düşmənimizdir.

Duyduğumuz bu propaqanda düşmən propaqandasıdır.Bizi aldadırlar.Yalandır.Gələn rus ordusudur.Lap komandanı bir türk olsa da,(Xəlil Kut) yenə rusdur. İstila ordusudur. Onun istəyi-1914-cü il sərhəddinə çıxmaqdır.Anadolu imdadına getmək bəhanəsi ilə yurdumuza girən bu işğal ordusu buradan bir daha çıxmaq istəməyəcəkdir.Qızıl Rusiya ilə razılığa gəlmək üçün hökuməti mütləq bolşeviklərə təslim və ultimatumu qəbul etmək zillətinə qatılmağa ehtiyac yoxdur.Bu sırtıqcasına verilmiş ultimatumu tam nifrətlə rədd etmək lazımdır.Qalmaqalçı Rusiya ilə mübariz Türkiyənin əlaqə və həmrəyliyinin təmin etmək zərurəti ilə radikal bir hökumətin deputatlar tərəfindən təşkili və bu hökumətə səlahiyyət verilməsi ilə siyasətini neytrallaşdırmaq lazımdır.Deputatlar şəxsən belə bir təşəbbüslə məşğuldur.Beləliklə, həm Rusiya ilə bir ümumi dil tapılar,həm də milli istiqlalımıza zərər toxunmaz.Eyni zamanda Anadoluya imdad məqsədi də hasil olar.Başqa cür edilən hər hansı bir güzəşt millət hüququnu təslimdən ibarət olar ki,buna qatlanmaq şərəfimizi alçaltdığı kimi,böyük bir fəlakətə də səbəb olar!...

***İstiqlalımızı göz bəbəyi kimi müdafiə etməyə qərar verən bir məclis üçün,dinlədiyi bu ultimatumu qəbul etmək-hökuməti öz əli ilə dost cildinə girmiş düşmənə təslim etməkdir!Biz buraya millətin iradə və arzusu ilə gəldik,bizi buradan yalnız qüvvə və süngü çıxarmalıdır!..."***

Lojalar və salonu dolduran böyük bir dinləyici kütləsinin sürəkli alqışları qarşılığı bu nitqə baxmayaraq,parlament,inqilabi sırf daxili bir kabinet təhvili şəklinə döndərən bir şəraitlə hökuməti Azərbaycan kommunist partiyasına tərk etməyi zərurət hiss etdi.Ultimatumu müdafiə edən müxtəlif partiyaların nəzərində də,təslim deyil,kabinet dəyişməsi baş verirdi.

***Hökuməti Azərbaycan Xalq Cumhuriyyətini bu şəkildə devirən Xəlil paşa və türk zabitləri Bakı əhalisinin mühdiş həyacanı ilə qarşılaşdılar.Hadisədə şəxsən iştirak etmiş olan,raportundan istifadə etdiyimiz Türkiyəli zabit burada eyni ilə bunları yazır:***

"Azərbaycan daxilindəki tərəfdarları, yalnız Bakı şəhərində olmaqla,8-10 gənc ziyalı ilə 300 fəhlədən artıq olmayan müsəlman bolşeviklərin əhali üzərində heç təsir və nüfuzu olmadığından və Bakı şəhəri daxil olmaqla,çox həyəcanlı bir vəziyyətdə ayaqlanan xalqı sakitləşdirmək üçün qüdrət mövqeyinə çıxan inqilab komitəsi,gələn qızıl ordunun Anadoluya köməyə gedəcəyini,türklərlə bolşeviklərin müttəfiq olduğunu,Bakı vali və komandanlığına Osmanlı zabitlərindən yüzbaşıRifat bəyin təyin edildiyi və Bakıya gələn qızıl ordunun bir neçə gün qonaq qaldıqdan sonra Ermənistan üzərinə gedəcəyini əhaliyə vəd etmiş və Osmanlı zabit və müəllimləri avtomobillərlə küçə-küçə gəzərək əhaliyə eyni nəqaratı təkrar-təkrar deməklə şüurları sakitləşdirməyə çalışmış və müvəffəq olmuşdular.Bu küçə-küçə gəzənlərin əllərində osmanlı bayraqları olduğu da yaddan çıxarılmasın.Bakıya girən Qızıl ordu şəhəri Azərbaycan və Türkiyə bayraqları ilə bəzənmiş görmüşdü.

***Azərbaycan ordusu Qarabağdan çəkilərək savaşa yeridilsəydi XI –ci Qızıl ordunu məğlub etmək mümkündü.Azərbaycan ordusu ruslardan az olsa da texnika –təchizat ,intizam cəhətdən cəhətdən rus ordusundan daha güclü idi.İndi Bakı proletariatının üsyan edib sovet rejimi qurduqlarından bəhs edən yalançı pəhləvanlar "inqilab komitəsinin" yerləşdiyi parlament binasının üzərində belə bolşevik bayrağı asmağa cəsarət etməmişdilər.***

**(ardı var)**

***Qalmaqalçı Rusiya ilə mübariz Türkiyənin əlaqə və həmrəyliyinin təmin etmək zərurəti ilə radikal bir hökumətin deputatlar tərəfindən təşkili və bu hökumətə səlahiyyət verilməsi ilə siyasətini neytrallaşdırmaq lazımdır.Deputatlar şəxsən belə bir təşəbbüslə məşğuldur.Beləliklə, həm Rusiya ilə bir ümumi dil tapılar,həm də milli istiqlalımıza zərər toxunmaz.Eyni zamanda Anadoluya imdad məqsədi də hasil olar...***



***Onlar üçün "Müsavat"ın müdafiə etdiyi milliyyət,Türklük,demokratiya və cumhuriyyət prinsipləri yabançı,hətta zərərli şeylərdi.İslami beynəlmiləl şüarlarla proletar marksist beynəlmiləl doktirinalarının Azərbaycançılıq,milliyyətçilik və cumhuriyyətçilik prinsipləri ilə bir araya sığmayacağı göz qabağındadır.Onun üçündür ki, onlar Xəlil paşa və yoldaşlarının "tövsiyyə"lərinə dərhal qapandıqları halda, "İttihad və Tərəqqi" nümayəndələrinin "Müsavat" üzərində heç bir təsiri olmamışdır...***